

**Eldar Qəmərli**

## Bax

*Vaiz bizə söylər şəri Mustafa,*
*Harama mürtəkib olmayın əsla,*
*Özü lüm-lüm udur batində əmma,*
*Zahirdə dediyi mənaya bir bax!*
Q.B.Zakir

*Ekrandan gözünü ayır bir anlıq,*
*Sən həyat adlanan kinoya bir bax!*
*Hər tərəf zülmətdir, hər yan qaranlıq,*
*Sən bu qaranlıqda fənaya bir bax!*

*Gözün gördüyünü dərk edir ağıl,*
*Biz pisdən-yaxşıdan görmüşük mağıl,*
*İndi qurd qoyuna danışır nağıl,*
*Nağılda məzmuna, mənaya bir bax!*

*Həyat düz adamı vaxtsız qocaldır,*
*Əyri adam üçün yaxşı macaldır,*
*Oğru haram pulla taya ucaldır,*
*Oğrunun əlində şanaya bir bax!*

*Xəbis ürəklərdə qara çillərə,*
*Düzlükdən dəm vuran yalan dillərə,*
*Pambıqla baş kəsən qanlı əllərə,*
*Əllərə qoyulmuş hənaya bir bax!*

*Qartala rişxəndlə ağzını büzən,*
*Özünü şax tutan, şəst ilə gəzən,*
*Büllur göl içində naz ilə üzən,*
*Sağsağan əsilli sonaya bir bax!*

*Həyat bir üzükdür, bilinmir yaşı,*
*Kimlərdir üzüyün bəzəyi, qaşı,*
*Axtarma, axtarsan lap uzaqbaşı,*
*Cındır ilə dolu "xana"ya bir bax!*

*İnsanı idarə eyləyir göydən,*
*Mal kimi bazarda satılır bədən,*
*Doğmaca qızını fahişə edən,*
*Binamus ataya, anaya bir bax!*

*Qara üstələyir getdikcə ağı,*
*Saya salan yoxdur kəbin-talağı,*
*Küçədə gündüzün günorta çağı,*
*Əxlaqsız oyuna, zinaya bir bax!*

*Düz yazmaq əzəldən olubdur peşəm,*
*Mən saray görəndə pozulur nəşəm,*
*Çölü bər-bəzəkli, özü möhtəşəm,*
*İçi fitnə dolu binaya bir bax!*

*Eldar, dərd çəkməkdən bel bükülübdür,*
*Göydən başımıza kül tökülübdür,*
*Həyat bağçasında gül əkilibdir,*
*Gülü ayaqlayan danaya bir bax!*

## Dost olub

**Taxta alim, saxta şair dost olub,**
**Hər ikisi bir-birini aldadır.**
**Hər ikisi bu dostluqdan məst olub,**
**Saxta tərif bu məclisdə bal dadır.**

**Hər ikisi istedaddan kasıbdır,**
**Qırx ildir ki, ilhamları susubdur,**
**Hər ikisi quyruğunu qısıbdır,**
**Tülkü kimi məskənləri koldadır.**

**Şair hər gün ilhamını gərildir,**
**Alim hər gün qələmini itildir,**
**Hər ikisi külüng çalır qırx ildir,**
**Qırx ildir ki, hər ikisi "nol"dadır.**

**Hər ikisi lovğa, forslu, ədəbaz,**
**Hər ikisi fırıldaqçı, kələkbaz,**
**Hər ikisi qanmaz, nadan və dayaz,**
**Hər ikisi yetişməyib, kal dadır.**

**Nə şairin qəlb oxşayan şeri yox,**
**Nə alimin alimlikdə yeri yox.**
**Hər ikisi piyadadır, biri yox,**
**Hər ikisi belə mağmun haldadır.**

**Hər ikisi siyafurdur, sırtıqdır,**
**Hər ikisi cır-cındırdır, yırtıqdır.**
**Nə o bundan, nə bu ondan artıqdır,**
**Deməк olmaz biri bir az daldadır.**

**Hər ikisi bəd əməlli, ziyankar,**
**Hər ikisi el içində günahkar,**
**Hər ikisi pula həris, tamahkar,**
**Fikirləri dövlətdədir, maldadır.**

**Bu dostluğun barı yoxdur, axtadır.**
**Bu ünsiyyət, münasibət saxtadır,**
**Hər ikisi taxta oğlu, taxtadır,**
**İlhamları ciblərində, puldadır.**

**Bu dostluğu vəsf elədim mən belə,**
**Şeir yazdım iki saxta bülbülə,**
**Fikrim var ki, şeir yazım silsilə,**
**Biri budur, qalanları yoldadır.**

## Yoxdur

*Ot kökü üstündə bitər deyiblər,*
*Üstündə bitməli bir kökün yoxdur,*
*İtlərdə tulanı betər deyiblər,*
*Sənin tulalıqda şərikin yoxdur.*

*Dünyanın malını tək götürmüsən,*
*Gözdən tük qapmısan, tük götürmüsən,*
*Qızıldan o boyda yük götürmüsən,*
*İnsanlıq elmindən bir yükün yoxdur.*

*Evin qızıl ilə tamam dolsa da,*
*Başına qızıldan tac qoyulsa da,*
*Yığdığın var-dövlət ağır olsa da,*
*Adam arasında öz çəkin yoxdur.*

*Qələmim gözünə bir ağ salıbdır,*
*Qurdlu ürəyinə bir dağ salıbdır,*
*Eldar öz mülkündə bir bağ salıbdır,*
*Sənin bu dünyada bir ləkin yoxdur.*

## Zaman

*Ağlayarsan ağ bəxtinə,*
*Fələk qara qatan zaman.*
*Səni həyat qatarından,*
*Fələk yerə atan zaman.*

*Xeyri yoxdur vuruşmağın,*
*Qara bəxtlə dartışmağın,*
*Mənasızdır çarpışmağın,*
*Qaraçuxa yatan zaman.*

*Hər gördüyün kola girmə,*
*Hər çiçəyi, gülü dərmə,*
*Ehtiyatı əldən vermə,*
*Düşməni dost tutan zaman.*

*Yana-yana zəhmətinə,*
*Tüpürərsən qismətinə,*
*Səni keçi qiymətinə,*
*Dostlar yada satan zaman.*

*Gələr dəmi ağlamağın,*
*Üz döndərər solun, sağın,*
*Yer süpürər qaşqabağın,*
*Gəmilərin batan zaman.*

*Ömrün boyu at çaparsan,*
*Şan-şöhrətli at taparsan,*
*Nə yoğurub, nə yaparsan,*
*Son mənzilə çatan zaman.*

*Son mənzilin adı qəbir,*
*Eldar sözü deyər bir-bir,*
*Qaçmaq olmur İnkir, Minkir,*
*İmtahana dartan zaman.*

## Millətin

**Başının üstündən çəkilmir duman,**
**Özünü yadlara satan millətin.**
**Sabahı qaranlıq görünür yaman,**
**Bu yolla əhdinə çatan millətin.**

**Torpağı da gedər, dövlət-varı da,**
**İtər namusu da, qeyrət, arı da.**
**Ömrü tez qırılar, qalar yarıda,**
**Gülləni özünə atan millətin.**

**Millət nankor çıxsa öz əcdadına,**
**Millət balta çalsa öz qanadına,**
**Çətin ki, yetişən olsun dadına,**
**Gəmisi dəryada batan millətin.**

**Aldığı dərslərdən götürmür ibrət,**
**Ağlaya-ağlaya olub biqeyrət,**
**Gözləri işığa qalacaq həsrət,**
**Gözünü cəhalət tutan millətin.**

**Üstünə dağ boyda bir yorğan salıb,**
**Dərindən dərin bir yuxuya dalıb,**
**Talesiz taleyi allaha qalıb,**
**Dana qulağında yatan millətin.**

**Açılmır millətin bəsirət gözü,**
**Millətə xoş gəlmir Eldarın sözü,**
**Qoyun sürüsünə çevrilib özü,**
**Qurd ilə aşnalıq qatan millətin.**